**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**FƏLSƏFƏ VƏ HÜQUQ İNSTİTUTU**

*Əlyazması hüququnda*

**SƏMƏD HƏSƏN OĞLU ŞƏHNƏHAD**

# BÖYÜK ŞƏHƏRLƏRDƏ MÜHACİRLİK PROBLEMİ: QEYRİ-RƏSMİ YERLƏŞMƏ (TƏBRİZ ŞƏHƏRİ TİMSALINDA)

***6313.01- Sosial struktur, sosial institutlar və proseslər***

Sosiologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI- 2015**

Dissertasiya işi Bakı Dövlət Universitetinin «Sosiologiya» kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbərlər:** **Fəlsəfə üzrə elmlər doktoru, professor**
**İzzət Əşrəf oğlu Rüstəmov**

**Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent**
**Fazil Qulammmirzə oğlu Vahidov**

**Rəsmi opponentlər:** **Fəlsəfə üzrə elmlər doktoru, professor**
**Əlikrəm Mirhəsən oğlu Tağıyev**

**Sosiologiya üzrə fəlsəfə doktoru, dosent**
**Cavid Məhərrəm oğlu Məmiyev**

**Aparıcı təşkilat:** **Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası**

Müdafiə "_08___" _05___2015-ci il tarixdə saat ____ da Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutu nəzdində elmlər doktoru və fəlsəfə doktoru elmi dərəcələri almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.115 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Bakı şəhəri, AZ-1143, H.Cavid prospekti, 115, AMEA-nın Fəlsəfə və Hüquq İnstitutu, IX mərtəbə, konfrans zalı.

Dissertsiya ilə AMEA-nın Mərkəzi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "_____" ____________________2015-ci ildə göndərilmişdir.

**D.01.115 Dissertasiya**
**Şurasının elmi katibi,**
**fəlsəfə üzrə fəlsəfə doktoru** **Sevinc Arif qızı Həsənova**

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Sosial tədqiqatların nəticələri göstərir ki, qədim dövrlərdən etibarən şəhər həyatı kənd həyatına nisbətən daha yüksək səviyyədə olduğundan həmin fərq əhalinin kəndlərdən şəhərə köçməsinə kömək etmişdir. Bu proses eyni intensivlikdə olmamış, bəzən zəifləmiş, bəzən isə fəallaşmışdır. Kəndin daha çox qapalı və özünüidarə edən bir məkan olması da bu prosesə təsir göstərmişdir.

Sənayeləşmə, urbanizasiya, yeni texnologiyaların inkişafı, şəhərlərdə rifah və inkişaf imkanlarının geniş olması, kənd yerlərində baş verən müəyyən dəyişikliklər və digər amillər kəndin və kiçik şəhərlərin əhalisinin sürətlə böyük şəhərlərə mühacirət etməsinə və mühacirlərin gündən-günə artmasına səbəb olmuşdur. Lakin şəhərlərin belə geniş miqyaslı proseslərə hazır olmaması və mühacirlərin yerləşmə zəminində məhdudiyyətlərlə rastlaşması nəticəsində onların bir çoxu şəhərin qanuni və rəsmi yerlərində məskunlaşmaq imkanı əldə edə bilməmişdir. Onlar məcburən qeyri-rəsmi yaşayış yerlərində və şəhərlərin kənarlarında məskunlaşmalı olmuşlar. Həmin mühacirlərin məskunlaşdıqları yerlərdə yaşayış üçün zəruri şəraitin kifayət dərəcədə olmaması, planlaşdırılmanın aparılmaması, ümumi səhiyyə imkanlarının və gigiyenik amillərin zəif olması, rəsmi peşə və əmək imkanlarının kifayətsizliyi, gəlirlərin aşağı səviyyədə olması, təhsil imkanlarının qeyri-optimallığı, narkomaniyanın, müxtəlif deviant hərəkətlərin və davranışların geniş yayılması və digər bu kimi problemlər şəhərlərin inkişafına ciddi maneələr yaratmışdır.

Davamlı inkişafın əsas amillərindən biri insanların müxtəlif sosial fəaliyyət növlərində könüllü surətdə iştirak etməsidir. Şəhərlərin inkişafı bütün sakinlərin sosial-siyasi, iqtisadi və mədəni proseslərdə aktiv iştirakını və bütün imkanlardan optimal istifadəsini tələb edir. Lakin qeyri-rəsmi yaşayış yerlərində məskunlaşmış mühacirlər şəhər sistemində rəsmən tanınmadıqları üçün şəhərin rəsmi sakinləri hesab edilmirlər. Buna görə də onlara göstərilən xidmətlər qeyri-qənaətbəxş və yetərsiz olur. Həmin vətəndaşların ümumi fəaliyyət növlərində və sosial proseslərdə iştirakına təsir edən amilləri konkret sosial məkanın - Təbriz şəhərinin timsalında xüsusi olaraq araşdırmaq problemin həllinə, qeyri-rəsmi yaşayış yerlərində rifah səviyyəsinin yaxşılaşdırılması istiqamətində sosial layihələrin və məqsədli proqramların işlənib hazırlanmasına və reallaşdırılmasına kömək edə bilər.

Yeri gəlmişkən qeyd edək ki, son illərdə böyük şəhərlərin idarəçiliyi və bu müstəvidə insan potensialından daha səmərəli istifadə olunması məsələsi əhəmiyyətli dərəcədə aktuallaşmış, qarşılıqlı təcrübə mübadiləsinə tələbat xeyli artmışdır. Bu tələbatın ödənilməsi istiqamətində konkret addımların atılması diqqəti cəlb edir. Göründüyü kimi, qeyd olunan istiqamətlər bir-biri ilə sıx bağlıdır və bütövlükdə şəhər idarəçiliyini təkmilləşdirmək, insan amilini fəallaşdırmaq və onun potensial imkanlarını daha dolğun reallaşdırmaq baxımından xüsusi əhəmiyyətə malikdir.

Şəhərlərə olan mühacirətin səmərəli, yaxud zərərli bir proses olub-olmaması barədə müxtəlif rəy və mülahizələr mövcuddur. Lakin qeyri-rəsmi yaşayış yerlərində (şəhər ətrafında) məskunlaşma ilə nəticələnən mühacirətin böyük şəhərlərin inkişafına və rifah səviyyəsinə mənfi təsir etməsini əsaslandıran mülahizələr üstünlük təşkil edir.

Təbriz şəhəri nümunəsində apardığımız araşdırmalara əsasən deyə bilərik ki, qeyri-rəsmi məskunlaşma müasir şəhərlərin əsas problemlərindən biridir. Bu növ məskunlaşma şəhərlərin inkişafına iqtisadi, mədəni, təhlükəsizlik, ətraf mühit və struktur cəhətdən mənfi təsir etməklə yanaşı, həm mühacirlərin özləri üçün, həm də şəhərin idarəçiliyi ilə əlaqədar müxtəlif qurumlar və strukturlar üçün xeyli problemlər yaradır. Belə məskunlaşmaya probleminə və mühacirlərin vəziyyətinə laqeyd yanaşmaq şəhərin inkişafı üçün, şəhər əhalisi və mühacirlər üçün ciddi nəticələrə gətirib çıxarır. Mühacirlərin məsuliyyətsizliyi və sosial məsələlərdə yetrincə iştirak etməməsi şəhərin inkişafına problemlər yaratdığından, onların müxtəlif sahələrdə rəngarəng sosial fəaliyyət formalarına qoşulması olduqca vacibdir. Təsadüfi deyildir ki, problemin müxtəlif məqamlarını araşdıran tədqiqatçılar mühacirlərin sosial proseslərdə fəal iştirakının əhəmiyyətini vurğulayaraq qeyd edirlər ki, belə iştirak geriliyi aradan qaldırmağın, inkişafı sürətləndirməyin, fərdi lokal istedad və qabiliyyətləri üzə çıxarmağın və daxili resurslardan səmərəli istifadənin mühüm yollarından biridir.

**Problemin işlənmə dərəcəsi.** Tədqiqat mövzusu çoxaspektli problem olduğundan müxtəlif bilik sahələrini təmsil edən tədqiqatçıların, mütəxəssislərin diqqətini cəlb etmiş, nəticədə xeyli kitab, məqalə və tezis meydana çıxmışdır. Həmin tədqiqatları şərti olaraq iki qrupa ayrımaq olar: İranda və xarici ölkələrdə nəşr olunan əsərlər.

İran İslam Respublikasında böyük şəhərlər çoxdur və təbiidir ki, həmin şəhərlərin ətrafında qeyri-rəsmi məskunlaşma həqiqətən çox ciddi sosial-iqtisadi, sosial-mədəni problemdir. Şəhəratrafı məskənlərdə qeyri-rəsmi yerləşən sakinlərin şəhərin, bütövlükdə ölkənin ictimai-siyasi, sosial-mədəni proseslərində iştirakı məsələsi həm alimləri, mütəxəssisləri, həm də idarəetmə sferası ilə bağlı işçiləri daim ciddi düşündürən məsələlərdən biri olmuşdur. Lakin həmin məsələyə elmi maraq daha çox ötən əsrin 80-ci illərindən başlamışdır. Bu maraq bir tərəfdən böyük şəhərlərin kortəbii surətdə genişlənməsinə və meqapolislərə çevrilməsinə reaksiya kimi, digər tərəfdən isə şəhər-kənd münasibətlərini daha nizamlı və optimal qurmaq istəyi kimi formalaşmışdır. Lakin hər iki halda şəhərətrafı zonalarda məskunlaşan əhalinin sosial iştirakçılığı probleminə ciddi diqqət yetirilmişdir. Problemin bir sıra aspektlərinin işlənilməsi baxımından İran tədqiqatçılarından Purbehinin, Effətinin, Mahmudiyanın, Mohseni Təbrizinin, Hamid Müqəddəmin, Hüseyniyanın, Şəkurinin, Piranın və başqalarının elmi araşdırmalarını qeyd etmək vacibdir. Qeyd olunan mütəxəssislərin mövqelərini yığcam xülasə etsək, deyə bilərik ki, onların ən çox diqqət yetirdikləri məqamlar bunlardır: kəndlərdəki real vəziyyət diqqətlə öyrənilməlidir ki, kəndləri tərk edən və şəhəratrafı zonalarda qeyri-rəsmi yerləşən sakinlərin münasibətləri daha nizamlı qurula bilsin; kəndlərdə və şəhərətrafı zonalarda həyata keçirilən layihələrin, proqramların nəticələri müntəzəm surətdə araşdırılmalı və belə bir suala cavab axtarılmalıdır ki, nə üçün həmin layihələr və proqramlar gözlənilən ümidləri yetərincə doğrulda bilməmişdir; sosial iştirak anlayışının konseptual təhlili aparılmalıdır; şəhərətarfı zonalarda məskunlaşan əhalinin, o cümlədən qadınların iştirakına təsir göstərən, daha doğrusu, mane olan amillər müəyyənləşdirilməli və onlara rasional təsir imkanları axtarılmalıdır. Bu tədqiqatlarda diqqəti cəlb edən məqamlardan biri də həm kəndlərdə, həm də şəhərlərdə və şəhərətrafı zonalarda yaşayanların problem barəsində rəylərinin, mülahizələrinin sosioloji metodlarla öyrənilməsidir. Bu halda sənədlərin təhlili, müşahidə, müsahibə və anket sorğusu metodlarından geniş istifadə olunmuş, sakinlərin düşüncələr aləmini mümkün qədər müfəssəl öyrənməyə səy göstərilmişdir. Təqdirəlayiq haldır ki, bir çox araşdırmalarda elmi cəhətdən əsaslı təklif və tövsiyələr də işlənib hazırlanmışdır, hərçənd onlar bəzən konkret səciyyə daşımır. Ona görə də qeyd olunan mütəxəssislərin əsərlərinin

dissertasiyanın hazırlanmasında ciddi əhəmiyyət kəsb etdiyini etiraf etməliyik.

Şəhərətrafı qeyri-rəsmi məskunlaşma əslində beynəlxalq xarakterli problem olduğundan xarici ölkələrdə də tədqiqatçıların diqqətini cəlb etmişdir. Həmin tədqiqatçılar sırasında ilk növbədə Engelhartın, Bertvenin, Helinin, Hantinqtonun, Nelsonun, Arneştaynın, Braudvelin, Venqrofun, Diyominin, Niyostormun, Senetin, Kubun, Nevtonun, Manuenin, Rolan Kolinin, Lernerin, M.V.Borşevskinin, O.İ.Şkaratanın, M.N.Mejeviçin, Q.F.Kutsevin, O.N.Yanitskinin, V.İ.Staroverovun, N.İ.Şipanovun və başqalarının adları qeyd olunmalıdır. Bu tədqiqatçılar böyük şəhərlərdə mühacirlik, qeyri-rəsmi yerləşmə problemini geniş sosial kontekstdə götürür və başlıca çıxış yolunu vətəndaş-dövlət qarşılıqlı münasibətlərini təkmilləşdirməkdə görürlər. Bu o demək deyildir ki, onlar digər yollara, vasitələrə (ümummədəni səviyyənin inkişafı, məlumatlılıq, sosial iştirakçılığın mənasını dərketmə və s.) laqeydlik göstərirlər, əksinə, həmin vasitələri yetərincə qiymətləndirir və əsas istiqamətlə üzvi surətdə əlaqələndirirlər. Qərb tədqiqatçıları problemin kəskinliyi ilə ölkənin inkişaf səviyyəsi arasında ciddi əlaqə olmasına diqqəti cəlb edir, onun həllində beynəlxalq səviyyədə səylərin artırılmasını, əməkdaşlığın inkişaf etdirilməsini vacib sayırlar. Araşdırmalar göstərir ki, bu tədqiqatların İranın elmi-intellektual mühitinə təsiri real faktdır.

Dissertasiya işinin yerinə yetirildiyi Azərbaycan Respublikasında da böyük şəhərlərin problemlərinə, o cümlədən qeyri-rəsmi məskunlaşma məsələlərinə müəyyən elmi marağın formalaşmasını xüsusi qeyd etməliyik. Sovet dövründə şəhərlə kənd arasında sosial-iqtisadi və mədəni-məişət fərqlərinin aradan qaldırılması istiqamətində aparılan azsaylı araşdırmaları nəzərə almasaq, deyə bilərik ki, müstəqil inkişaf şəraitində sosial-fəlsəfi və sosioloji fikir bu problemə, demək olar ki, reaksiya verməmişdir. Lakin coğrafiyaçıların və ekoloqların (B.Əfəndiyev, M.Müseyibov, Ş.Göyçaylı, Q.Məmmədov, Q.Mustafayev və başqaları) tədqiqatlarında şəhərətrafı zonalarında qeyri-rəsmi məskunlaşma və mühacirlik probleminin bəzi aspektlərinə diqqət yetirilmiş, həmin problemin xüsusilə gələcək inkişaf baxımından doğurduğu ciddi sosial nəticələr nəzərdən keçirilmişdir. Təqdirəlayiq haldır ki, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsi hazırlanmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 29 iyun 2012-ci il tarixli sərəncamı ilə «Azərbaycan

Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında Azərbaycan Respublikasının Qanunu» artıq qəbul olunmuşdur.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini böyük şəhərlərdə mühacirlik problemi, predmetini isə belə şəhərlərdə qeyri-rəsmi yerləşmə və onun doğurduğu sosial nəticələr, şəhərətrafı zonalarda məskunlaşan əhalinin sosial proseslərdə iştirakı məsələləri təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri**. Dissertasiya tədqiqatının məqsədi Təbriz şəhərinin timsalında böyük şəhərlərdə qeyri-rəsmi yerləşmə ilə şərtlənən sosial problemləri, o cümlədən əhalinin sosial iştirakçılığı məsələlərini sosioloji baxımdan araşdırmaqdan ibarətdir. Bu məqsədi həyata keçirmək üçün qarşıya qoyulmuş konkret tədqiqatçılıq vəzifələri aşağıdakılardan ibarətdir:

- Təbriz şəhəri ətrafında qeyri-rəsmi məskunlaşma zonalarını konkret qruplara ayrımaq, bu qruplarda məskunlaşma prosesinin müasir vəziyyətini səciyyələndirmək;
- iştirak anlayışının konseptual təhlilini aparmaq və qeyri-rəsmi yerləşmənin müxtəlif əhali qruplarının sosial proseslərdə iştirakına təsir xüsusiyyətlərini araşdırmaq;
- müasir iştirak nəzəriyyələrini nəzərdən keçirmək, onların təkamülünü izləmək, ümumi və spesifik cəhətlərini müəyyənləşdirməyə səy göstərmək;
- Təbriz şəhərinin ətrafındakı zonalarda qeyri-rəsmi məskunlaşmış əhali qruplarının müxtəlif məsələlərə münasibətini öyrənmək məqsədi idə keçirilən konkret sosioloji tədqiqatın-anket sorğusunun metodologiyasını işləyib hazırlamaq, əsas anlayışları və baş məcmuyu dəqiqləşdirmək, seçmə məcmusunu müəyyənləşdirmək və tədqiqatı reallaşdırmaq;
- aparılmış konkret sosioloji tədqiqatın nəticələrini təhlil etmək, bu əsasda qeyri-rəsmi məskunlaşma yerlərində yaşayan sakinlərin ümumişəhər və ölkə həyatına dair məsələlərin həllində iştirakçılıq səviyyəsini yüksəltməyə kömək edən tövsiyələr işləyib hazırlamaq.

**Dissertasiyanın nəzəri-metodoloji əsasları.** Dissertasiyada araşdırılan problemlə bağlı İranda və xarici ölkələrdə, o cümlədən Azərbaycanda aparılan tədqiqatlardan nəzəri-metodoloji əsas kimi istifadə edilmişdir. Problemin tədqiqində rəsmi sənədlər, habelə dövri mətbuatda və internet saytlarında öz əksini tapan müxtəlif materiallar mühüm mənbələr olmuşdur. Tədqiqatda analiz və sintez,

induksiya və deduksiya, ümumiləşdirmə, quraplaşdırma, tarixi-müqayisəli və sistemli təhlil metodlarından geniş istifadə edilmişdir.

Dissertasiyada qarşıya qoyulan məqsəd və vəzifələri reallaşdırmaq, zəruri məsələləri araşdırmaq üçün müxtəlif sosioloji tədqiqat materiallarından, o cümlədən müəllifin özünün Təbriz şəhərinin ətraf zonalarında sakin olanlarla keçirdiyi apardığı anket sorğusunun və müsahibələrin nəticələrindən istifadə olunmuş və rəsmi sənədlərin təhlili əsasında müvafiq ümümiləşdirmələr aparılmışdır.

**İşin elmi yeniliyi.** Dissertasiyanın elmi yenilik məqamları qarşıya qoyulmuş məqsəd və vəzifələrlə şərtlənmiş və konkret olaraq aşağıdakı müddəalarda öz əksini tapmışdır:

- Təbriz şəhəri ətrafında qeyri-rəsmi məskunlaşmış müxtəlif əhali qruplarının real vəziyyəti rəsmi sənədlər, müsahibə və anket sorğusu əsasında öyrənilmiş, onların sosial problemlərinin dairəsi müəyyənləşdirilmiş, konkret coğrafi-ərazi zonalarında ümumi və spesifik cəhətlərin aşkara çıxarılmasına səy göstərilmişdir;

- iştirak anlayışının konseptual təhlili zəminində onun mahiyyətli xaraktersitikaları sosial baxımdan araşdırılmış, müxtəlif mövqelər müqayisə edilmiş və müəyyən dəqiqləşdirmələr aparılmışdır:

- sosial iştirakçılıq nəzəriyyələrinin təkamülü izlənilməklə şəhərətrafı zonalarda qeyri-rəsmi yerləşmənin kəsb etdiyi xüsusiyyətlərin həmin nəzəriyyələrdə necə əks olunması məsələləri nəzərdən keçirilmişdir;

- müəllifin apardığı konkret sosioloji tədqiqat əsasında Təbriz şəhəri ətrafında məskunlaşan insanların sosial qayğıları və problemləri real surətdə öyrənilmiş, onların şəhərin, bölgənin, ölkənin sosial həyatında daha fəal iştirakını təmin etmək baxımından əhəmiyyətli olan müəyyən təkliflər işlənib hazırlanmışdır;

- qeyri-rəsmi yerləşmə kontekstində sakinlərin həyat fəaliyyətində ənənəviliklə müasirliyin, milli-mənəvi və dini dəyərlərlə yeni məqamların spesifik şəkildə çulğalaşması və mürəkkəb sosial-mədəni şəbəkə yaratması ən yeni faktlar, o cümlədən konkret sosioloji tədqiqat materialları əsasında araşdırılmışdır.

**Tədqiqatın hipotezi.** Problemə dair mövcud ədəbiyyatın öyrənilməsi və ilkin araşdırmalar aparılması aşağıdakı hipotezi irəli sürməyə imkan vermişdir:

Qeyri-rəsmi yaşayış yerlərində məskunlaşan mühacirlərin mədəni- intellektual səviyyəsi ilə onların sosial fəaliyyət və

proseslərdə iştirakı səviyyəsi arasında ciddi əlaqə mövcuddur. Bu əlaqəyə həmin mühacirlərin nisbi məhrumiyyət hissi, akkulturasiya cəhdləri və qabiliyyətləri, məskunlaşdıqları yerə bağlılıq hissi və hazırkı məkanda məskunlaşdıqları müddət daha əhəmiyyətli təsir göstərir.

**Dissertasiyanın elmi-nəzəri və praktik əhəmiyyəti.** Dissertasiya işində irəli sürülən və təhlil olunan elmi-nəzəri məsələlər analoji situasiyaların təhlili, habelə daha konkret istiqamətlərdə araşdırmaların aparılması üçün yaralıdır. Tədqiqatın nəticələrindən böyük şəhərlərdə məskunlaşma ilə əlaqədar layihələrin, plan və proqramların hazırlanmasında, həmin şəhərlərin idarə olunması sisteminin optimallaşdırılmasında istifadə oluna bilər. Dissertasiyadakı materiallar sosiologiya, sosial fəlsəfə, politologiya və s. fənlər üzrə xüsusi kursların təşkili, buraxılış işlərinin, referatların hazırlanması üçün faydalı mənbə ola bilər.

**Dissertasiya işinin aprobasiyası.** İş Bakı Dövlət Universitetinin Sosiologiya kafedrasında yerinə yetirilmiş və müzakirə olunaraq müdafiəyə məsləhət görülmüşdür. Dissertasiyanın əsas müddəaları müəllifin çap etdirdiyi məqalələrdə (o cümlədən xaricdə nəşr olunmuş iki məqalədə), beynəlxalq və respublika səviyyəli bir sıra elmi-praktik konfranslarda (2010-cu il, 2011-ci il, 2012-ci il) çıxışlarında öz əksini tapmışdır.

**İşin strukturu.** Dissertasiya işi giriş, üç fəsil, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısı və əlavədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**«Giriş»**də mövzunun aktuallığı əsaslandırılır, problemin işlənilmə dərəcəsi şərh edilir, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, elmi yenilik məqamları, hipotezi nəzəri-metodoloji əsasları, elmi-nəzəri və praktik əhəmiyyəti müəyyənləşdirilir, işin aprobasiyası və strukturu açıqlanır.

İşin **birinci fəsli «Təbriz şəhəri ətrafındakı qeyri-rəsmi yaşayış zonaları və onların sosial xarakteristikası»** adlanır və üç yarımfəsli əhatə edir. Bu fəslin **«Şəhərətrafı qeyri-rəsmi məskunlaşma: nəzəri axtarışların əsas istiqamətləri»** adlanan **ilk yarımfəslində** böyük şəhərlərin ətrafında kortəbii surətdə qərarlaşan qeyri-rəsmi məskunlaşma barəsində həm İranın, həm də xarici ölkələrin tədqiqatçılarının mövqeləri araşdırılır, onlara münasibət bildirilir. Qeyd olunur ki, əksər hallarda həmin mövqelərin hər biri şəhərətrafı zonalarda məskunlaşmanın müəyyən cəhətlərini ehtiva edir. Məsələn,

Z.Zahidani «şəhərətrafı sakinlər» terminindən istifadə edir və göstərir ki, belə sakinlər şəhərin əhatə dairəsində məskunlaşmış, lakin şəhərin iqtisadi və sosial sisteminə yetərincə cəlb edilməmiş (marginallaşmış)[1] insan qruplarıdır. Bu bir həqiqətdir ki, həmin qruplar şəhərətrafı zonalara mühacirət etdikdən sonra şəhərin həyat tərzinə, qanunlarına və mədəniyyətinə adaptasiya olanmaqda çətinlik çəkir, müxtəlif sosial problemlərlə rastlaşırlar. Çox zaman həmin qruplar deviasiya, bərabərsizlik, təhsil və səhiyyə imkanlarının məhdudluğu, ziddiyyət, yoxsulluq və işsizlik problemlərini yaşamalı olurlar.[2] O.S.Koistin fikrincə, şəhərətrafı sakin mühacirət, təhsil, evlənmək və yaxud digər bir məsələ ilə əlaqədar olaraq, bir sosial-mədəni qrupu tərk etmiş fərddir. O, həmin qrupu tərk edir, lakin yeni qrupda könüllü olaraq tam çalışa bilmir və demək olar ki, kənarda qalır (marginallaşır). O, bu iki qrupun heç birinin tam üzvü ola bilmir. Tədqiqatçı bütövlükdə şəhərətrafı sakinin inkişaf ehtimalını vurğulayır və qeyd edir ki, onun zehnində, düşüncəsində müxtəlif mədəniyyətlərin təması, toqquşması baş verir və nəhayətdə ortaq bir məhsul ortaya çıxır: mədəniyyətlərarası kontaktın və əriyib-qarışmanın baş verməsi nəticəsində fərd inkişaf üçün yeni imkan əldə edir.[3]

Yarımfəsildə belə bir mülahizə əsaslandırılır ki, qeyri-rəsmi yaşayış yerlərinin strukturu, görkəmi, fəaliyyəti və digər xüsusiyyətləri mövcud sosial-iqtisadi və mədəni xarakteristikalardan asılı olaraq bir-birindən fərqlənir. Müxtəlif tədqiqatçıların problemlə, onun ayrı-ayrı məqamları ilə bağlı mülahizələrinin təhlili nəzəri axtarışlarda bir sıra mühüm istiqamətlərin ayırd edilməsinə imkan verir. Həmin istiqamətlər sırasına bunları aid etmək olar: a) kənd və şəhər münasibətlərində tarazlılığın pozulması; b) kəndlərin inkişafında problemlərin çoxalması, karyera qazanmaq imkanlarının məhdudluğu; c) iri şəhərlərdə perspektiv inkişafa dair planlı əsasın

---

[1] زاهد زاهدانی، سید سعید. رابطه فرد و جامعه / مجله علوم اجتماعی و انسانی، دانشگاه شیراز . شیراز . دوره پنجم(۱۳۶۹) . شماره دوم. صفحه 29-33

[2] ربانی خوراسگانی ، رسول . پدیده جنگ و پیامدهای آن با تاکید بر ابعاد جمعیتی جنگ ایران و عراق. رساله کارشناسی ارشد دانشگاه: دانشگاه تهران. (۱۳۷۰) . صص - 64 .s

[3] آتال، یوکش و اوین، الس . ترجمه پاد، ایرج . فقر و مشارکت در جامعه مدنی، تهران: انتشارات سروش. (1379) ، 21-22صفحه

zəif olması; ç) məmurların bir qisminin «yeni məskunlaşma» ilə əlaqədar gəlir əldə etmək istəyi; d) kəndlərdə sosial iştirakçılığın çox zaman formal xarakter daşıması; e) şəhərdə fərdi qabiliyyətlərin inkişafı üçün sosial-mədəni xüsusiyyətlər kompleksinin zənginliyi; ə) müasir şəraitdə qloballaşma və inteqrasiya çağırışlarına böyük şəhərlərin daha real və operativ reaksiya vermək imkanları; f)böyük şəhərlərin ətraf zonalarında qeyri-rəsmi yerləşmənin məhdudlaşdırılması və rəsmiləşdirilməsinə dair təkliflər; g) qeyri-rəsmi məskunlaşmış sakinlərin ən müxtəlif aspektlərdən, xüsusən sosial iştirakçılıq baxımından öyrənilməsi, müvafiq proqnozların hazırlanması və gerçəkləşdirilməsi və s.

Birinci fəslin **«Təbrizin şimalında və şimal-qərbində qeyri-rəsmi məskunlaşma: başlıca sosial göstəricilər»** adlanan ikinci yarımfəsli əsasən qeyd olunan zonada real sosial xarakteristikaların yığcam təhlilinə həsr olunmuşdur. Yarımfəsildə qeyd olunur ki, bütövlükdə Təbriz şəhərində olduğu kimi, qeyri-rəsmi yaşayış zonalarında da əhalinin sayı durmadan artır. Rəsmi statistik məlumata görə, 2011-ci ildə Təbrizdə yaşayan əhalinin sayı 1.695.094 nəfər olmuşdur.[1] Həmin ildə təkcə şəhərin şimalındakı qeyri-rəsmi məskunlaşma yerində yaşayanların sayı 200 min nəfəri keçmişdir.

Təbrizin şimalında və şimal-qərbindəki zonalarda əhalinin yaş strukturunun öyrənilməsi və bütövlükdə şəhər əhalisinin yaş strukturu ilə müqayisəsi göstərir ki, qeyd edilən zonalarda məskunlaşan əhali daha gəncdir: Təbrizdə yaşı 15-dən az olanlar 33.3 faiz, 15-64 yaşda olanlar 61.95 faiz, 65 yaşdan yuxarı olanlar 4.75 faiz təşkil etdiyi halda, şimal və şimal-qərb zonalarında həmin göstərici müvafiq surətdə 39.08 faiz, 56.75 faiz və 4.17 faiz olmuşdur.[2] Təbrizlə müqayisədə qeyri-rəsmi yaşayış yerlərində sakin olanların təhsilində, iş yerləri əldə etməsində, fəaliyyət növlərində və s. ciddi problemlər özünü göstərir. Qadınların sosial proseslərdə iştirakçılığını səciyyələndirən ümumi göstərici – iştirak əmsalı həm Təbrizdə, həm də nəzərdən keçirdiyimiz zonalarda aşağıdır (müvafiq surətdə 8.82 faiz və 7.59 faiz).

Təbrizin ətrafındakı şimal və şimal-qərb yaşayış məskənlərinin sosial xarakteristikasını nəzərdən keçirərkən bir məqama da diqqət yetirilməlidir. Belə ki, əhalinin siyahıya alınması zamanı həm 1996-cı, həm 2002-ci, həm də sonrakı illərdə şimal

[1] www.amar.org
[2] Yenə orada.

zonası 1-ci zona, şimal-qərb zonası isə 4-cü zona kimi qeyd edilibdir. 1-ci zona çox geniş və irimiqyaslı olub, Təbrizin şimalındakı qeyri-rəsmi yaşayış məskənləri və məhəllələri ilə yanaşı bəzi şəhərətrafı rəsmi məhəllələri də əhatə edir. 4-cü zonanın tərkibinə daxil olan şimal-qərb qeyri-rəsmi yaşayış zonası (Böyük Park) isə nisbətən yeni məskunlaşmışdır, qeyri-rəsmi yaşayış məskənlərinin ən kiçiyidir (sakinlərin sayı təxminən 10 min nəfərdir). Başqa sözlə, 4-cü zona daha çox rəsmi, qismən də qeyri-rəsmi yaşayış məskənlərini əhatə edir. Ona görə də qeyri-rəsmi yaşayış məskənlərinə dair sosial göstəricilərin başlıca elementlərini təhlil etməkdə məhz sosioloji tədqiqat metodları və əhalinin siyahıya alınması nəticəsində əldə edilmiş məlumatlar daha etibarlıdır.

Birinci fəslin **«Təbrizin cənubunda və cənub-qərbində qeyri-rəsmi məskunlaşma: sosial göstəricilərin səciyyəsi»** adlanan **üçüncü yarımfəslində** məlum ərazidə qeyri-rəsmi məskunlaşma, sakinlərin fəaliyyəti üçün xarakterik olan mühüm sosial məqamların təhlili verilir. Qeyd edilir ki, artıq 2006-cı ildə Təbrizin cənubundakı qeyri-rəsmi yaşayış məskənində 40 minə qədər, cənub-qərbində (Axmaqayada) isə 23 mindən çox əhali yaşayırdı. Əsrimizin əvvəlində, daha dəqiq desək, 2012-ci ildə isə həmin zonalarda yaşayan əhalinin sayı müvafiq surətdə 60 min və 33 mindən çox olmuşdur. Təbrizin digər qeyri-rəsmi yaşayış məskənlərində olduğu kimi bu zonalarda da əhalinin yaş sturukturu şəhərlə müqayisədə daha gəncdir.

Təhsil vəziyyətinə və qadınların sosial proseslərdə iştirak səviyyəsinə görə Təbrizi nəzərdən keçirdiyimiz zonalarla müqayisə etsək, fərqli məqamları asanlıqla görmək olar. Belə ki, 6 və yuxarı yaşda olanlar içərisində Təbriz şəhəri üzrə rəsmi təhsili olanlar 81,78 faiz, rəsmi təhsili olmayanlar isə 18,22 faiz təşkil etdiyi halda, Təbrizin cənubunda müvafiq surətdə 77,87 faiz və 22,13 faiz, cənub-qərbində (Axmaqayada) isə 75,46 faiz və 24,54 faiz olmuşdur. Qadınların sosial proseslərdə iştirak əmsalı Təbriz şəhərində 8,82 faiz, araşdırdığımız zonalarda isə müvafiq surətdə 5,46 faiz və 4,91 faiz olmuşdur.

Araşdırmalar göstərir ki, həm Təbrizin cənubunda, həm də cənub-qərbində olan qeyri-rəsmi yaşayış yerlərində ailələrin orta hesabla həcmi azalmış (4.69 nəfərdən 4.23 nəfərə çatmışdır), yaranan yeni ailələrin mənzilə tələbatı əsasən qeyri-rəsmi yaşayış zonalarında (rəsmi statistikada bunlar 3-cü və 2-ci zonalar kimi qeyd olunur) yeni

evlərin tikilməsi hesabına ödənilmişdir. Xüsusilə cənub zonasının coğrafi-ərazi baxımından münasibliyi və mədəni səviyyəsinin digər qeyri-rəsmi yaşayış məskənlərindən üstünlüyü buraya təkcə 2006-2012-ci illərdə, təxmini hesablamalara görə, 15-17 min nəfər (bu, təxminən 3500 ailə deməkdir) yeni mühacirin gəlməsinə səbəb olubdur.

Hazırda Təbrizin cənubundakı qeyri-rəsmi yaşayış məskənində 55 mindən çox, cənub-qərbindəki yaşayış məskənində isə 33 mindən çox əhali yaşayır. Bu məskənlərdə əhalinin sayının artması buraya yaxın rəsmi məhəllələrin problemlərini xeyli dərəcədə artırır, xüsusilə ekologiya ilə əlaqədar bəzi xoşagəlməz situasiyaların yaranmasına səbəb olur. Apardığımız müsahibələr zamanı müəyyənləşdirdik ki, ictimai nəqliyyatın işində gərginliyin və sıxlığın yaranması rəsmi məhəllələrin sakinləri tərəfindən narazılıqla qarşılanır.

Yeri gəlmişkən qeyd edək ki, cənub-qərb zonasının qərarlaşması digər zonalardan bir qədər fərqli olmuşdur: belə ki, əslində burada çox qədim zamanlardan müəyyən mədəni səviyyəyə malik iki kənd (Axmaqaya və Ravasan) mövcud olmuş, sonralar Təbrizlə birləşmiş, lakin tədricən qeyri-rəsmi yerləşmə meylləri güclənmişdir. Beləliklə, Axmaqaya tarixən kəndin öz sakinlərinin, Təbrizin qərb və cənub-qərbindəki şəhər və kəndlərdən köçüb gələnlərin və Təbrizin bir çox yoxsul təbəqələrinin birgə yaşayış yerinə çevrilmişdir. Axmaqayanın böyük bağları, əkin yerləri, münbit torpağı və s. bu gün də cəlbedicidir. Təsadüfi deyildir ki, 2006-2011-ci illərdə buradakı ailələrin sayı 4909-dan 7943-ə çatmışdır. 2011-ci ilin məlumatına görə, 7920 nəfər əmək qabiliyyətli əhalinin yalnız 21,5 faizi qeyri-rəsmi yaşayış məskənində işləyir, qalanları isə şəhərdə və digər ətraf zonalarda iş axtarmalı olurlar.

Belə nəticəyə gəlmək olar ki, real vəziyyəti dəqiq araşdırıb, Təbrizin və onun ətraf zonalarının tarazlı inkişafı təmin edilməlidir.

Dissertasiyanın **ikinci fəsli «Qeyri-rəsmi yerləşmə və sosial proseslərdə iştirakçılıq»** adlanır və iki yarımfəsli əhatə edir. Bu fəslin **«İştirak anlayışının konseptual təhlili»** adlanan **birinci yarımfəslində** iştirak anlayışına münasibətdə irəli sürülən müxtəlif mövqelər nəzərdən keçirilir, onların konseptual təhlili verilir, tədqiqatın predmeti baxımından əhəmiyyətli olan müəyyən dəqiqləşdirmə aparılır. Müəllifin fikrincə, iştirakçılığın tarixi insanın həyatı ilə birgə başlanır və müəyyən təkamül yolu keçir. Başqa sözlə, insan ilk dəfə əlbir səylərlə bəzi problemlərin həllinə nail ola biləcəyini dərk etdiyi

andan etibarən iştirak anlayışından bəhs etmək olar. İştirak endogen inkişafın bir forması olaraq, zaman-zaman «niyə» və «necə» suallarına cavab axtarır, daha yüksək effektivliyi təmin etmək üçün lokal resursların və daxili imkanların səfərbər edilməsi anlayışını özündə ehtiva edir.[1] Yeri gəlmişkən, qeyd edək ki, BMT-nin İnkişaf proqramında iştirakın insanların tələbat və ehtiyacları ilə bilavasitə əlaqəsi olan məsələlər barəsində qərarların qəbulunda və reallaşdırılmasında onların təsir və nəzarət imkanlarını genişləndirməyə xidmət edən instrument olması xüsusi olaraq vurğulanır.[2]

İnkişaf etmiş cəmiyyətlərdə sosial əlaqələrin mürəkkəbləşməsi, habelə urbanizasiya, miqrasiya və s. proseslərlə şərtlənən müxtəlif tələblər yeni institutların, birliklərin yaranmasına səbəb olmuşdur. Yeni iqtisadi, siyasi və sosial-mədəni təşkilat və institutların rolu tədricən artaraq, ənənəvi ailə, qəbilə-tayfa əlaqələrini zəiflətmişdir. Bu halda iştirak insanların gündəlik həyatının bir hissəsi olmuşdur. Əlbəttə, bəzi insanların, qrupların bu yeni təşkilat və institutlardan sui-istifadə etməsi, yaxud sui-istifadə etmək istəməsi mümkündür. Lakin iştirak bir sosial dəyər olaraq tədricən insanların effektiv fəaliyyətinə və birliyinə zəmin yaratmış olacaqdır.[3]

Yarımfəsildə qeyd edilir ki, iştirak öz konseptual cəhətləri və müxtəlif elmlərin səciyyəvi xüsusiyyətləri baxımından araşdırıldığına görə onun növlərinin müəyyənləşdirilməsi də birmənalı şərh olunmur. Bu halda müxtəlif meyarları və prinsipləri əsas götürərək iştirakın müxtəlif növləri ayırd edilir və onların yığcam təhlili verilir: xalqın rolunun əhəmiyyətlilik dərəcəsinə görə fundamental (çoxölçülü) və cüzi (birölçülü) iştirak; planlaşdırma və icra səviyyəsinə görə lokal, regional, milli və beynəlxalq iştirak; iştirakın obyektinə (sahəsinə) görə iqtisadi, siyasi, sosial və mədəni iştirak; əhalinin sosial institut, şura, icma və təşkilatlarla əməkdaşlığının səviyyəsinə görə seçkilərdə iştirak, könüllü olaraq sosial-siyasi fəaliyyətlərdə iştirak, xeyriyyə xarakterli fəaliyyətlərdə iştirak, müxtəlif icma, təşkilat və birliklərə

---

[1] Lowe et al, political Man. Anchor Book. New York: 1999, p.12.

[2] تقوایی، مسعود؛ بابا نسب، رسول؛ موسوی، چمران . تحلیلی بر سنجش عو امل مؤثر بر مشارکت شهروندان در مدیریت شهری؛ مطالعه موردی؛ مطالعات و پژوهش‌های شهری و منطقه‌ای. منطقه ۴ شهر تبریز . سال اول. شماره دوم. 61 صفحه

[3] طالب، مهدی . مدیریت روستایی در ایران، تهران: انتشارات دانشگاه تهران. (1375) ، 320صفحه, 271.

üzvlük, motiv və stimula görə spontan iştirak, endogen iştirak; xalqın iştirak formasına görə bilavasitə (birbaşa) və bilvasitə (vasitəli) iştirak; iştirakçının istəyinə və məqsədinə görə özünəxidmət, başqalarına xidmət, əməkdaşlıq xarakterli iştirak; uzvlük formasına və müdaxilənin keyfiyyətinə görə təbii, şüurlu (iradi) avtomatik, spontan və məcburi iştirak; iştirakçıların məqsəd və gözlədikləri nəticəyə görə sosial balansı qorumaq məqsədilə həyata keçirilən və sosial dəyişikliklər etmək məqsədilə həyata keçirilən iştirak və s.

İkinci fəslin **ikinci yarımfəsli «İştirak nəzəriyyələri»** adlanır və bir növ birinci yarımfəsildə qoyulan məsələləri tamamlayır. Qeyd edilir ki, fərdlərin, ayrı-ayrı qrupların sosial proseslərdə iştirak səbəbləri, iştirakının stimullaşdırılması və reallaşması şəraiti, sosial mənsubluq hissi, habelə sosial laqeydliyin səbəbləri barəsində müxtəlif nəzəriyyələr, konsepsiyalar mövcuddur. Bu nəzəriyyələrdə qeyd edilən məsələlərin təhlili müxtəlif aspektlərdən aparıldığına görə fərqli yanaşmalar özünü göstərir. Yarımfəsildə həmin nəzəriyyələr bir neçə əsas qrupa ayrılır: 1. Sosial-psixoloji nəzəriyyələr; 2. Sosioloji nəzəriyyələr (funksionalistlər, strukturalistlər, münaqişə konsepsiyasının tərəfdarları və s.); 3. Siyasi nəzəriyyələr (siyasi modernizm); 4. İqtisadi nəzəriyyələr. 5. Mədəni nəzəriyyələr. Nəzərə almaq lazımdır ki, irəli sürülən və əsaslandırılan mövqelər bir çox hallarda məlum hüdudlardan kənara çıxır.

Sosial-psixoloji nəzəriyyələrin mahiyyəti İnkelsin araşdırmalarında aydın şəkildə təzahür edir. O, öz tədqiqatlarında belə nəticəyə gəlmişdir ki, bir çox ölkələrin yetərincə inkişaf edə bilməməsinin əsas səbəbi cəmiyyət üzvlərinin sosial proseslərdə iştiraka rəğbət göstərməməsi, həmçinin dəyərlər, yanaşma və oriyentasiya baxımından tərəqqiyə hazırlıqsız olmasıdır. Onun fikrincə, «modern cəmiyyətin formalaşması iştiraka meylli, ümumi problemlərlə maraqlanan, qohumluq və coğrafi-ərazi mənsubluğundan asılı olmayaraq, öz vətəndaşlıq borcunu başa düşən insanların olmasından asılıdır».[1]

Sosioloji nəzəriyyələrdən strukturalizmin mövqeyi belədir ki, əhalinin iştirakı ictimai sistemin bir hissəsini təşkil edir, sosial strukturların qorunmasına və davam etməsinə səbəb olur. Lakin daha ciddi və genişmiqyaslı iştirak tələb edən inkişafa nail olmaq üçün bəzi sosial və siyasi strukturlarda optimal dəyişikliklər edilməlidir ki, daha çox insanın effektiv iştirakına şərait yaransın.

[1] Inkless. Alienation as a concept in social sciences. Paris: Mouton the vague, 1994, p.5.

Funksionalizmin iştirak məsələsinə yanaşması sosial qrupların və fərdlərin iştirakı nəticəsində meydana çıxan funksiyaları və rolları diqqət mərkəzində saxlamağa önəm verir. Bu baxımdan iştirak pozitiv funksiya yerinə yetirərək cəmiyyətin birliyini, həmrəyliyini təmin etməkdə fəal rol oynayır. Münaqişə konsepsiyasının tərəfdarları cəmiyyəti qeyri-bərabər mübadilə əsasında formalaşan müxtəlif qruplar və təbəqələr arasında daimi mübarizə və münaqişə kontekstində təhlil edirlər.

Siyasi nəzəriyyələrə görə, müəyyən bir qrupun, yaxud təbəqənin əlində cəmləşən qapalı siyasi sistem müxtəlif qrupların, təbəqələrin və etnik birliklərin hakimiyyət resurslarına sahib olmasını imkansız edir və vətəndaşların sosial proseslərdə iştrakına mane olur. Əslində siyasi gücün mərkəzləşməsi siyasi partiyaların, təşkilatların, qrupların rolunu, əhalinin sosial-siyasi proseslərdə iştirakını zəiflədir. Ziyalıların, elitanın, tələbələrin əməkdaşlıq və iştirak səviyyəsi aşağı olduqca cəmiyyətdə siyasi şüur və siyasi birlik səviyyəsi də zəif olur, nəticə etibarilə vətəndaşların iştiarkına mənfi təsir göstərir və onların passivliyinə gətirib çıxarır.

İqtisadi nəzəriyyələrə görə, fərdin iştirak səviyyəsi onun həmin iştirakdan əldə edəcəyi qazanc, yaxud rastlaşacağı ziyanla əlaqədar onu necə qiymətləndirməsindən asılıdır, yəni fərd məlum qiymətləndirməyə əsasən sosial-siyasi sahədə iştirak edib-etməməyə qərar verir.

Mədəni istiqamətli nəzəriyyələr isə vətəndaşların iştirak səviyyəsini mənəvi normalarla, stereotiplərlə, standartlarla əlaqələndirir və belə qənaətə gəlir ki, fərdlərin, qrupların iştirakını yüksəltmək üçün mövcud əngəlləri aradan qaldırmaq və qərarlaşmış dəyərlər məcmusunda dəyişiklik etmək vacibdir.

Yarımfəsildə qeyd olunan yanaşmaların hüdudlarında özünü göstərən bir sıra mülahizələr, mövqelər konkret şəkildə araşdırılır. Bu halda Qərb tədqiqatçılarından İngelhartın, Bertonun, Helinin, Dürkheymin, Marksın, Hantinqtonun, Nelsonun, Arneştaynın, Paulun, Konnorun, Benqrofun, Lernerin, Kolinin, Senetin, Kubun, İran tədqiqatçılarından Tusinin, Piranın, Effətinin, Əzdanlunun mövqeləri təqdim olunur və nəzərdən keçirilir.

Dissertasiya işinin **üçüncü, sonuncu fəsli «Təbriz şəhərinin ətraf zonalarında qeyri-rəsmi məskunlaşmış əhalinin sosial proseslərdə iştirakının empirik sosioloji tədqiqi»** adlanır və iki yarımfəsli ehtiva edir. **«Empirik sosioloji tədqiqatın başlıca parametrləri»** adlanan ilk yarımfəsildə müəllifin apardığı konkret sosioloji tədqiqatın – anket

sorğusunun ən mühüm göstəriciləri təqdim olunur. Qeyd edilir ki, anket sorğusu ilə əhatə olunan respondentlərin sayı 398 nəfərdir: onların 296 nəfərini (74,4 faizini) kişilər, 102 nəfərini (25,6 faizini) isə qadınlar təşkil edir. Respondentlərin yaş qruppu üzrə tərkibi belə olmuşdur: 14 yaşa qədər – 3 nəfər (0,75 %), 15-19 yaşlılar – 13 nəfər (3,27%), 20-24 yaşlılar – 31 nəfər (7,79%), 25-29 yaşlılar – 48 nəfər (12,06%), 30-34 yaşlılar – 36 nəfər (9,05%), 35-39 yaşlılar -31 nəfər (7,79%), 40-44 yaşlılar – 67 nəfər (16,83%), 45-49 yaşlılar – 29 nəfər (7,29%), 50-54 yaşlılar – 57 nəfər (14,32%), 55-59 yaşlılar -24 nəfər (6,03%), 60-64 yaşlılar -22 nəfər (5,53%), 65 və daha çox yaşda olanlar – 37 nəfər (9,30%).

Tədqiqat zamanı seçmə məcmusuna daxil olan respondentlərin təhsil səviyyəsi xüsusi olaraq öyrənilmişdir. Məlum olmuşdur ki, onlardan 30 nəfəri təhsili olmayanlardır (10,13%), 96 nəfərinin ibtidai və natamam orta təhsili var (32,43%), 152 nəfərinin tam orta və orta ixtisas təhsili var, yaxud tələbədir (51,4%), 15 nəfəri bakalavriat və magistratura məzunudur (5,067%), 3 nəfər isə sualı cavablandırmamışdır (1,013%). Xüsusi cədvəllərdə kişi və qadın respondentlərin təhsil səviyyəsi müqayisəli şəkildə nəzərdən keçirilmişdir. Bundan əlavə, respondentlərin rəsmi təhsil üzrə ixtisas və faktik peşə tərkibi də araşdırılmışdır. Respondentlərin ailə vəziyyəti araşdırıldıqda məlum olmuşdur ki, onların mütləq əksəriyyəti – 333 nəfəri (83,67%) evlidir; subaylar isə cəmi 65 nəfər (16,33%) olmuşdur. Bu, şəhərətrafı qeyri-rəsmi məskunlaşmanın daha çox evlilik amili ilə bağlı olmasını təsdiqləyir.

Sorğuda iştirak edənlərin valideynlərinin (ata və analarının) təhsil səviyyəsini araşdırarkən maraqlı məqamlar ortaya çıxmışdır. Əvvəla, respondentlərin xeyi qismi – 150 nəfəri sualı cavablandırmamışdır; bu, respondentlərin öz valideynlərinin təhsil səviyyəsini dəqiq bilməməsi ilə, eyni zamanda ata-analarının savadsız olmasını etiraf etmək istəməməsi ilə əlaqədar ola bilər. 120 nəfər respondentin atasının, 161 nəfərin isə anasının rəsmi təhsili olmamış, 126 nəfərin atasının, 128 nəfərin isə anasının ancaq ibtidai məktəb səviyyəsində təhsili olmuşdur. Nəzərdən keçirdiyimiz göstərici baxımdan natamam və tam orta təhsillilər azlıq təşkil edir (müvafiq surətdə 79 nəfər və 33 nəfər).

Tədqiqat zamanı respondentlərin həyat yoldaşlarının təhsil səviyyəsini də müəyyənləşdirməyə çalışdıq. Bu, respondentlərin öz təhsil səviyyələri haqqında verdikləri məlumatların dolayısı yolla nə dərəcədə əsaslı, mötəbər olduğunu müəyyənləşdirməyə kömək

etmişdir. Araşdırma zamanı aydın olmuşdur ki, təhsilin olmaması və aşağı təhsil səviyyəsi şəhərətrafı zonalara qeyri-rəsmi məskunlaşan sakinlər üçün səciyyəvi cəhətdir. Cavabsız qalan suallar (100 nəfər) daha çox həyat yoldaşının olmaması faktını təsdiqləyir.

Konkret sosioloji tədqiqatın gedişində həm kişi, həm də qadın respondentlərin həyat yoldaşlarının məşğul olduqları peşələrə diqqət yetirilmişdir. Məlum olmuşdur ki, kişilərin məşğul olduğu peşələrin dairəsi qadınlarla müqayisədə daha genişdir. Evli qadınların təxminən 30 faizə qədəri evı işləri ilə, 6 faizdən çoxu isə xalça toxumaqla məşğuldur. Kişi respondentlərin çoxu (təxminən 57 faizə qədəri) həyat yoldaşının peşəsinə dair sualı cavablandırmamışdır. Bu, çox güman ki, kişi respondentlərin həmin məsələyə qeyri-ciddi yanaşmasını ifadə edir. Araşdırmalar göstərir ki, evli qadınların məşğulluğuna uşaqların olması ciddi təsir göstərən amillərdəndir; həm də bir və iki uşağı olan ailələr üstünlük təşkil edir (müvafiq surətdə 98 nəfər – 29,43 faiz və 78 nəfər -23,42 faiz). Müəyyənləşdirilmişdir ki, 398 respondentin ümumilikdə 575 uşağı vardır ki, bunların da təxminən 50 faizi 5-15 yaş arasında, 23,14 faizi isə 5 yaşdan kiçikdir.[1]

Hazırkı yaşayış yerində sakinlərin məskunlaşma müddətini araşdırarkən məlum olmuşdur ki, burada məskunlaşanların mütləq əksəriyyəti (təxminən 85 faizi) zaman etibarilə son 30 ilə aid edilə bilər.

Tədqiqat zamanı sorğu iştirakçılarının mənsub olduqları coğrafi məkanın, yəni əvvəlki yaşayış yerlərinin (şəhər, rayon) öyrənilməsinə də diqqət yetirilmişdir. Məlum olmuşdur ki, ilk 5 yeri aşağıdakı məkanlar təmsil edir: Təbriz (154 nəfər – 38,69 faiz), Əhər (41 nəfər – 10,3 faiz), Bosmanabad (35 nəfər – 4.27 faiz), Sərab və Mərənd (hər biri 15 nəfər -2,26 faiz). Deməli, şəhərətrafı qeyri-rəsmi məskunlaşma ilk növbədə Təbrizin öz problemidir: burada mənzil tikintisi və ailələrin, ən əvvəl gənc ailələrin mənzillə təminatındakı ciddi qüsurlarla bağlıdır.

Üçüncü fəslin **«Şəhərətrafı zonalarda məskunlaşmış sakinlərin sosial proseslərdə iştirakına dair empirik tədqiqat məlumatlarının təhlili»** adlanan **ikinci, sonuncu yarımfəslində** məlum ərazidə müəllifin apardığı anket sorğusunun nəticələri araşdırılmışdır. Qeyd olunmuşdur ki, Təbriz şəhərinin ətrafında qeyri-rəsmi yerləşmiş əhalinin sosial proseslərdə iştirakının müxtəlif formaları, təzahürləri

---

[1] www.Amar.org

mövcuddur. Bunlar səviyyəsinə, intensivliyinə və tezliyinə görə fərqli xüsusiyyətlərə malikdir.

Anket sorğusu zamanı əvvəlcə respondentlərin müxtəlif qrup, təşkilat, mərkəz və dərnəklərə rəsmən üzv olub-olmadıqları öyrənilmişdir. Məlum olmuşdur ki, burada ciddi sosial ehtiyatlar mövcuddur və onlardan səmərəli istifadə olunması istiqamətində əsaslı səylər göstərilməlidir. «Bəli» cavabını verən respondentlərin sayı 169 nəfər (42,5 faiz), «Xeyr» cavabını verənlərin sayı isə 223 nəfər (56 faiz) olmuşdur (6 nəfər – 1,5 faiz cavab verməmişdir). Sorğu zamanı əldə edilmiş məlumata əsasən deyə bilərik ki, respondentlərin, demək olar ki, hamısı dini mərasimlərdə iştirak edir. Onların 37,2 faizi (148 nəfəri) ən yaxın məscid və dini məkanları, 32,7 faizi (130 nəfəri) yaxın qohum, yaxud dostlarının məhəlləsində olan məscid və dini məkanları, 28,1 faizi (112 nəfəri) isə şəhərdəki qohum və dostlarının yaşadıqları məhəllələrdə olan məscidləri və dini məkanları seçirlər (8 respondent cavab verməmişdir).

Sorğu zamanı sakinlərin yaşadıqları məhəllə ilə əlaqədar qəbul olunan qərarlar barəsində nə səviyyədə fikir bildirmələri öyrənilərkən məlum olmuşdur ki, «olduqca az» və «az» cavabı verənlər 117 nəfər (29,4 faiz), «müəyyən qədər» cavabını verənlər 71 nəfər (17,8 faiz), «çox», «olduqca çox» cavablarını verənlər isə 189 nəfər (47,5 faiz) olmuşdur (cavabdan imtina edənlər isə 21 nəfər olubdur ki, bu da 5,3 faiz təşkil edir). Məsələ praktik müstəviyə keçirildikdə vəziyyət bir qədər fərqli olmuşdur: belə ki, «Problemlərin həlli ilə əlaqədar olan kollektiv fəaliyyətlərdə necə iştirak edirsiniz?» sualına 122 nəfər (30,7 faiz) «olduqca az» və «az» cavablarını, 141 nəfər (35,4 faiz) «müəyyən qədər» cavabını, 118 nəfər (29,7 faiz) «çox», «olduqca çox» cavablarını vermiş, 17 nəfər isə (4,3 faiz) həmin sualı cavablandırmamışdır.

Araşdırma prosesində müəyyən edilmişdir ki, rəyi soruşulanların mütləq əksəriyyəti qrupla birgə fəaliyyətin effektivliyinə yetərincə inanır, «olduqca az» və «az» inananlar isə cəmi 5,5 faiz (22 nəfər) təşkil etmişdir. Respondentlərin qrup tərəfindən qəbul edilən qərarlara hörmətlə yanaşıb, onlara əsasən riayət etmələri də (364 nəfər - təxminən 91 faizdən çox) diqqəti cəlb edən məqamlardandır.

Sorğu eyni zamanda məlum ərazidə yaşayan sakinlərdə laqeydliyin hələ də güclü olduğunu üzə çıxarmışdır: respondentlərin 28 faizdən çoxu (112 nəfər) «az hallarda» və « olduqca az hallarda»

ortaya çıxan problemin aradan qaldırılması üçün səlahiyyətli şəxslərlə əlaqə saxladığını qeyd etmişdir.

Araşdırma prosesində «Ümumi xeyir naminə həyata keçirilən bəzi işlər üçün şəxsən nə səviyyədə pul vəsaiti ayırırsız?» sualına verilən cavablar respondentlərin maddi cəhətdən xeyli imkansız olduqlarını üzə çıxarmışdır: belə ki, 119 nəfər (təxminən 30 faiz) «olduqca az» və «az», 99 nəfər (24,9 faiz) «müəyyən qədər» pul vəsaiti ayırdığını qeyd etmişdir. Zənnimizcə, 38 nəfərin (təxminən 10 faizə yaxın) cavabdan imtina etməsi də onların vəsait ayırmamasının təzahürü kimi qiymətləndirilə bilər.

Şəhərətrafı zonalarda məskunlaşan sakinlərin seçkilərdə, mitinqlərdə və s. iştirak səviyyəsi də yetərli deyildir. Belə ki, respondentlərin təxminən yarısı öz iştirak səviyyəsini «olduqca az», «az» və «müəyyən qədər» kimi qiymətləndirmişdir. 53 nəfərin (13,3 faiz) cavabdan imtina etməsi də, çox güman ki, iştirakın olmaması qənaətini ifadə edir. Sakinlərin müxtəlif mədəni institutların məhəllədə, yaxud şəhərdə (məscidlərdə, mədəniyyət evlərində və s.) təşkil etdikləri tədbirlərə qatılması sahəsində vəziyyət daha acınacaqlıdır: belə ki, respondentlərin 20 faizdən çoxu (82 nəfər) «olduqca az», 8,5 faizi (34 nəfəri) «az», 18,1 faizi (72 nəfəri) isə «müəyyən qədər» cavablandırmışdır. 49 nəfərin (12,3 faiz) cavabdan boyun qaçırmasını da, zənnimizcə, qeyri-iştirakçılıq qismində dəyərləndirmək olar. Bundan əlavə, müəyyən edilmişdir ki, təlim mərkəzlərindən və mədəniyyət evlərindən istifadə imkanları da məhduddur. Belə ki, respondentlərin 241 nəfəri (60 faizdən çoxu) həmin imkanların yetərli olmadığını qeyd etmişdir.

Sorğunun nəticələri göstərmişdir ki, şəhərətrafı zonalarda təhlükəsizlik baxımdan vəziyyət qaneedici deyildir: belə ki, rəyi soruşulanların 261 nəfəri (65,6 faizi) məhz bu fikirdədir. Qoyulan sualın ciddi əhəmiyyət kəsb etməsini ondan görmək olar ki, ancaq bir respondent sualı cavablandırmamışdır. Eyni zamanda məlum olmuşdur ki, şəhərin və ölkənin səlahiyyətli, vəzifəli şəxslərinin problemlərlə tanış olmaq və onları aradan qaldırmaq üçün məhəlləyə gəlməsi bütövlükdə az təsadüf olunan hadisədir. Əlavə olaraq qeyd edək ki, respondentlərin 229 nəfəri (57,5 faizi) aidiyyəti orqanların və qurumların məhəllənin problemlərinə laqeyidlik səviyyəsini «çox» və «olduqca çox» kimi dəyərləndirmişdir.

Yarımfəsildə anket sorğusunun digər sualları ilə əlaqədar məsələlər (dostlarla müxtəlif mövzuların müzakirəsi, başqa adamlarla əməkdaşlığın genişləndirilməsi, iş tapmaq imkanlarından istifadə,

Təbriz şəhərinə bağlılıq, bu şəhərlə əlaqədar olan xəbər və hadisələri izləmə tezliyi və s.) də nəzərdən keçirilmiş, nəticələr təhlil olunmuşdur.

Seçdiyimiz tədqiqat obyektində (qeyri-rəsmi yaşayış zonalarında) hipotezin yoxlanılması məqsədilə Chi-square testi də keçirmiş və Chi-squarenin statistik miqdarını, sərbəstlik dərəcəsini, habelə asimptotik əhəmiyyətin səviyyəsi müəyyənləşdirilmişdir. Məlum olmuşdur ki, qeyri-rəsmi yaşayış zonalarında məskunlaşmış əhalinin bilik səviyyəsi, nisbi məhrumiyyət hissi, mədəni adaptasiya səviyyəsi, şəhərə bağlılıq hissi, həmin ərazidə məskunlaşma müddəti ilə onların sosial proseslərdə iştirakı arasında əhəmiyyətli əlaqə vardır.

Dissertasiya işinin «Nəticə» hissəsində tədqiqat ümumiləşdirilmiş, böyük şəhərlərin ətrafındakı qeyri-rəsmi yaşayış məskənlərinin fəaliyyətini optimallaşdırmaq baxımından müəyyən əhəmiyyət kəsb edən bir sıra təklif və tövsiyələr verilmişdir.

Dissertasiyanın əsas məzmunu müəllifin çap olunmuş aşağıdakı məqalə və tezislərində öz əksini tapmışdır:


1. Проблемы миграции в Баку // XXI век: итоги прошлого и проблемы настоящего. Актуальные проблемы социально-гуманитарного знания . М. : 2010, вып. 13, с.33-36.
2. Ostanlararası mühacirətin ölkə üzrə məşğulluq vəziyyətinə təsiri /İranda mühacirət. İranın Cəmiyyətşünaslıq Assosiasiyasının beşinci seminarı. İran. Tehran: 2010, s.80-81.
3. Mühacirət və şəhərdə məskunlaşma XX əsrdə //Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Bakı Slavyan Universiteti: Bakı: 2010, №1, s.340-345.
4. О развитии социального капитала на территории Восточного Азербайджана / Наука и современность – 2010. Сборник материалов VI Международной научно-практической конфериции. Новосибирск: 2010, ч.2, с.67-70.
5. İctiamai kapital anlayışına dair // Elmi əsərlər. Beynəlxalq elmi-nəzəri jurnal. AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu. Bakı: 2011, №1 (16), s.193-198.
6. Böyük şəhərlərdə qeyri-rəsmi məskunlaşma ciddi sosial problem kimi / Qloballaşma şəraitində sosial problemlərin

həlli yolları. Gənc tədqiqatçıların respublika elmi-praktik konfransının materialları (27 aprel 2012-ci il). Bakı: 2012, s.122-126.

7. Təhqiqat və sənayenin inkişafında müdiriyyətin rolu // Müdiriyyət və insan resursları. Tehran: 2012, №8, s.9-30 (həmmüəlliflə).
8. Tehranın şəhər tikintisi kompleksində ilk meqapolisin yaranması: mühacirlik nümunəsində // Demoqrafiya jurnalı. Tehran: 2012, №75-76, s.22-47.

**Самед Гасан оглу Шахнехад**

# Проблема миграции в больших городах: неформальное расселение (на примере города Тебриз)

## Резюме

В диссертационной работе на примере города Тебриз рассматриваются социальные проблемы неформальных расселений вокруг больших городов, дается социологический анализ участия мигрантов в социальных процессах. Диссертация состоит из введения, трех глав, закмочения использованной литературы и приложений.

В первой главе «Неформальные зоны расселения населения вокруг города Тебриз и их социальная характеристика» рассматриваются теоретические аспекты проблемы, дается общая характеристика неформальных расселений на севере и северо-западе, а также на юге и юго-западе вокруг города Тебриз.

Во второй главе диссертации «Неформальное расселение и участие в социальных процессах» ведется концептуальный анализ понятия «участие», анализируются концепции проблемы участия, последовательно приводятся характеристики социального участия населения, неформально переселившихся в большие города и проживающих там.

В третьей главе диссертации «Эмпирическое социологическое исследование участия населения, неформально расселившихся в пригородных зонах города Тебриза, в социальных процессах» материал рассматривается в двух направлениях: а) излагаются методические разработки и методологические основания проведенного конкретного социологического исследования; б) ведется качественный и количественный анализ и обобщение полученных результатов исследования.

В заключении подытоживаются результаты исследования, даются предложения и пожелания по оптимизации деятельности в сфере социального участия населения, неформально расселенного вокруг больших городов.

**Samad Hasan ogluh Shahnahad**

## The problem of emigration in big cities: non-official settlement (On the example of the city of Tabriz)

### Summary

The presented thesis deals with social problems of population settling non-officially in surrounding zones of big cities on the example of the city of Tabriz. At the same time the thesis is devoted to the sociological analyses of participation in the problems of social processes happening in the city and country as well. The work consists of introduction, three chapters, conclusion, the list of bibliography and additional material.

In the first chapter called "Non – official living zones in the surroundings of the city of Tabriz", the main directions of theoretical investigations about non-official settlement in city surroundings have been looked through, the general characteristics of social indications of non-official settlement in south-west and south have also got its expression in the thesis.

In the second chapter of the thesis ("Non-official settlement and participation in social processes") the conceptual analyses of participation conception is analyzed, the theories of participation are investigated, different positions about the participation of people in social processes settling non-officially and emigrating to big cities and their surrounding zones are also spoken about.

In the third chapter of the work (the empiric sociological investigation of people settling non-officially in the surrounding zones of the city of Tabriz and their participation in social processes") the analyses are carried out in two directions:

a) The main parameters of concrete sociological investigation carried out by the author are presented: b) The empiric material gained as a result of the same investigation is analyzed.

In the conclusion part the investigation is summarized and some proposals and advice are put forward about people, settling non-offically in the surroundings of big cities as well.

AMEA-nın mətbəəsində çap olunub
Tiraj-100

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ФИЛОСОФИИ И ПРАВА**

*На правах рукописи*

**САМЕД ГАСАН оглы ШАХНЕХАД**

# ПРОБЛЕМА МИГРАЦИИ В БОЛЬШИХ ГОРОДАХ: НЕФОРМАЛЬНОЕ РАССЕЛЕНИЕ (НА ПРИМЕРЕ ГОРОДА ТЕБРИЗ)

***6313.01- Социальная структура, социальные институты и процессы***

**АВТОРЕФЕРАТ**

диссертации на соискание ученой степени
доктора философии по социологии

**БАКУ- 2015**